UOT 330.341.1:62

# ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA SAHİBKARLIĞA İNNOVATİV YANAŞMA

**Nuranə Nazim qızı Abbasova-Zeynalova**
Mingəçevir Dövlət Universiteti
nurane.abbasova@mdu.edu.az

***Xülasə:*** *Tədqiqatda sahibkarlıq və innovasiya arasındakı əlaqə araşdırıldıqdan sonra tədqiqat və təkmilləşdirmənin əhəmiyyəti vurğulanır. Müasir dövrdə sahibkarlıq fəaliyyəti ümumi milli məhsulun strukturuna, iqtisadi artım tempinə və keyfiyyət dərəcəsinə təsir göstərir. Bu şəraitdə sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənib, ona kömək göstərilməsi zəruri hal alır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan istehsal müəssisələrinin əsasının qurulması və inkişafı iqtisadi sahələr üzrə innovativ texnologiyaların əsasının qoyulmasını sürətləndirir, uyğun olaraq əhalinin məşğulluq səviyyəsi artır, azad rəqabət şəraiti yaranır.*

***Açar sözlər:*** *innovasiya, sahibkarlıq fəaliyyəti, texnologiya, dövlət dəstəyi, modernləşmə, innovativ sahibkarlıq, məşğulluq səviyyəsi, işsizlik*

## Giriş

Dünyada yüksək texnologiyaların istehsalının və tətbiqinin təsiri ilə baş verən sürətli dəyişikliklər bütün sahələrdə yeni yanaşmaları ortaya çıxarır. Baş verən proseslər innovasiya, texnopark, sənaye parkları, elm parkları, ağıllı zonalar, azad iqtisadi zonalar, innovasiya sahibkarlığı, startap kimi anlayışların aktuallığının artmasına səbəb olur. Hadisələrin sürətlə dəyişməsi, həmçinin yeni yanaşmaların təsiri ilə tələb və təklifin müəyyənləşməsi yeni metodların tətbiqinin əhəmiyyətini ortaya qoyur [4].

Dünya təcrübəsində müəssisələrin dəstəklənməsi və maliyyələşdirilməsi dövlətin və cəmiyyətin mənafeyi nəticəsində formalaşır. Buna uyğun olaraq dövlətin əsas məqsədi bazar iqtisadiyyatında müəssisələrin mövcud olub, uğurlu fəaliyyət göstərməsi və qlobal bazara çıxışı üçün iqtisadi-hüquqi imkanların yaradılmasından ibarətdir.

## Sahibkarlıq fəaliyyətinin inkişafında innovasiya

Sahibkarlıq ən dar mənada, yaradıcı insan fəaliyyətidir, təşkilatın yaradılması və istifadəyə verilməsi prosesidir. Millerin fikrincə, sahibkarlığın əsas elementləri risk götürmək, fəal hərəkət etmək və yenilik etməkdir. Başqa bir tərifə görə, sahibkarlıq biznes imkanlarının tanınması, bu imkanlardan istifadə etmək üçün müvafiq risklərin idarə edilməsi və son nəticədə ünsiyyət və idarəetmə bacarıqlarından istifadə edərək dəyər yaratmaq prosesidir.

Xüsusilə sürətlə inkişaf edən müəssisələrin böyümə mərhələlərində bu müəssisələrin sahibkarları innovativdirlər və ideya səviyyəsində aktivləşdirici yeniliklər böyük rol oynayır. Sahibkarın gözlənilməz situasiyalarda yaranan problemləri həll etmək bacarığının innovativliklə bağlı olması innovasiyanı sahibkar və sahibkarlıq anlayışlarında kritik xüsusiyyətə çevirir. Çünki innovasiya təkcə sahibkarlığın deyil, həm də bütün biznes risklərinin uğurla başa çatmasında mühüm amildir. Texnologiya qısa zamanda inkişaf edir və dəyişir, bazar həm rəqiblərin sayı, onların payları, birləşmələri və bölünmələri, həm də müştərilərin tələbləri baxımından sürətlə dəyişir və məhsullar il bitməmiş köhnəlir. Dəyişiklik o qədər sürətlə baş verir ki, artıq biznes və onların sahibkarları üçün rəqabət güclərini əllərində saxlamaq kifayət deyil. Çünki rəqabət gücünü saxlamaq biznesin yalnız bir müddət sağ qalmasına imkan verir.

İnnovasiya sahibkarlığı bütün sahibkarlıq fəaliyyəti sferasının əsas bazasını təşkil edir. İstehsal sahibkarlığı, əsasən, məhsul istehsalında, kommersiya sahibkarlığı onların mübadiləsində - paylaşdırılmasında və istehlakında, maliyyə sahibkarlığı isə tədavüldə dəyərlərin mübadilə edilməsində yayılmışdır. İnnovasiya sahibkarlığı – ictimai, texniki və iqtisadi proses olub, ideyaların və ixtiraların praktiki istifadə edilməsi ilə yeni məhsulların və texnologiyaların yaradılmasına xidmət edir.

**İnnovasiya sahibkarlığında xarici təcrübə**

İnkişaf etmiş qərb ölkələrində kiçik biznesin inzibati cəhətdən formalaşması, iqtisadi və hüquqi cəhətdən köməyin müxtəlif metod və növlərindən: kiçik biznes üçün maliyyə dəstək proqramları, yeni yaradılmış müəssisələrlə bağlı dövlət strukturlarının yaradılmasına dəstək, dövlət dəstəyi ilə kiçik firmalara sifarişlərin verilməsi, vergi güzəştlərinin kiçik müəssisələrə tətbiqi, biznesin antiinhisar tənzimlənməsi, idarəetmə və texniki dəstəyin göstərilməsi və s. istifadə edirlər.

Bir sıra inkişaf etmiş ölkələrdə məhz sahibkarlıq strukturlu müəssisələrin dəstəklənməsi və maliyyələşdirilməsi məqsədilə tətbiq olunan dövlət siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- vətəndaşların məşğulluq səviyyəsinin yüksəldilməsi;
- sosial xərclərin aşağı salınması;
- müasir "smart" texnologiyaların sahibkarlara verilməsi;
- investisiyaların cəlb edilməsi;
- startapların maliyyələşdirilməsi.

Sahibkarlığın dövlət maliyyələşdirilməsi və dəstəklənməsi inkişaf etmiş ölkələrdə gələcəkyönümlü planların əsas istiqamətlərinə aid edilir. Bu, dövlət büdcəsi hesabına maliyyələşdirilmə əsasında risklərin sığortalanması fondlarının və sığorta təşkilatlarının birbaşa subsidiyalaşdırılması, kreditlərin geri qaytarılması üçün zəmanətlərin verilməsi, kreditlərin aşağı faizlərlə verilməsi şəklində həyata keçirilə bilər.

Yaponiya müasir dövrdə digər ölkələrlə müqaisədə sahibkarlıq fəaliyətinin inkişafı və dəstəklənməsində daha yüksək səviyyədə fərqlənir. Bu ölkədə kiçik müəssisələrə maliyyə vəsaitlərinin nəzərdə tutulması baş idarə və bəzi nazirliklərin illik xərclərində adi hal almışdır. Onlar bunu "mələk investisiya" adlandırırlar. Yaponiyada sahibkarlığın maliyyələşdirilməsi sisteminə dövlət təsisatları ilə yanaşı, özəl maliyyə təsisatları da daxildir. Özəl təsisatlarda sahibkarlığın maliyyələşdirilməsi əsasən dayanıqlı və yüksək gəlirli müəssisələrə şamil edilir. Problemli müəssisələrə isə dövlət dəstək olur. Təbii ki, belə qayğı və diqqət nəticəsiz deyil: bu gün Yaponiya iqtisadiyyatının 98,9 %-i kiçik və orta müəssisələrin payına düşür.

Amerikada sahibkarlığın inkişafının dəstəklənməsi və genişlənməsi sistemi mövcuddur və Kiçik Biznes Administrasiyası tərəfindən idarə olunur. Kiçik Biznes Administrasiyasının nümayəndəliyi hər bir şəhər və regionda fəaliyyət göstərir. Kiçik Biznes Administrasiyasının nümayəndəliyi dövlət siyasətini reallaşdıraraq biznes fəaliyyətlərinin dəstəklənməsi üzrə həm bazar strukturlarını, həm də dövlət təşkilatları ilə birlikdə müxtəlif proqramlarının həyata keçirilməsini təmin edir. Müxtəlif proqramların yaradılması ilə biznesin kreditləşdirilməsi maliyyə-kredit təşkilatları və digər kommersiya bankları vasitəsilə reallaşdırılır. Nəticədə Kiçik Biznes Administrasiyasının kredit təşkilatları kiçik biznes borclarının 85 %-dən 90 %-ə qədərinə tam təminat verir.

Cənubi Koreyada isə dövlət tənzimlənməsi sistemi və iqtisadiyyatın yüksək işgüzar fəallığı bir-biri ilə qarşılıqlı əlaqəlidir. İri korporasiyalara malik Cənubi Koreya hal-hazırda Yaponiya və Amerikadakı kimi iqtisadiyyatını ön mövqelərə məhz sahibkarlıq fəaliyyəti hesabına çıxarmış və Cənubi Koreya iqtisadiyyatının əsasına çevrilmişdir. Bu ölkənin Sənaye və Ticarət Nazirliyində sahibkarlıq fəaliyyəti bürosu fəaliyyət göstərir. Büronun fəaliyyəti yeni sahibkarlıq müəssisələrinin yaradılmasına və fəaliyyətinə köməklik edir, kurslar təşkil etməklə mütəxəssislərə müxtəlif təlimlər keçir, banklar qarşısında zamin formasında çıxış edir, bu prosesə dəstək olur, müxtəlif inzibati-idarəetmə məsələlərində yardım göstərir və subsidiyalar verir, qeydiyyata alınmaqda yardım edir və s.

Təhlillərə əsasən deyə bilərik ki, sahibkarlıq fəaliyyətinin inkişafını məhdudlaşdıran başlıca problemlərdən biri maliyyə vəsaitlərinə əlyetərliliyin olmamasıdır. Maliyyə ölkələrin əksəriyyətinin iqtisadiyyatlarının uğurlu fəaliyyət göstərməsinə təsir edən əsas amillərdən biridir. Uyğun olaraq, Avropa Birliyi ölkələrini üç qrupa ayıra bilərik:

Birinci qrupa İsveç, İtaliya, Danimarka, Böyük Britaniya, İspaniya və Yunanıstan daxildir. Adı çəkilən ölkələrdə uğurlu inkişafın əsas amili maliyyə resursları əldə etməkdir.

İkinci qrupa daxil olan Finlandiya, Fransa, Portuqaliya və Almaniyada sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq müəssisələr üçün ikinci yerdə maliyyələşmədir.

Üçüncü qrupa daxil edilmiş Niderland, Belçika, Lüksemburq və Avstriya kimi ölkələr qrupunda maliyyə resurslarının əldə olunması amili üçüncü yerdə, İrlandiyada isə dördüncü yerdə dayanır.

İnkişaf etmiş ölkələr sahibkar firmalara dəstək olmaq məqsədilə planlaşdırılmış güzəştli vergitutma sistemini möhkəmləndirərək aşağıdakı müddəaları özündə ehtiva edir:

- müəssisənin tikinti sahəsinə, yeni texnologiyaya kapital qoyuluşları zamanı yaranan xərclərin emal sənayesi müəssisələri üçün mənfəət vergi dərəcəsində müəyyən faizə qədər güzəştlərin tətbiqi;
- azaldılmış mənfəət vergi faizlərindən sərbəst istifadə olunması;
- mənfəət vergisindən azad olunan xüsusi ehtiyat fondlarının yaradılması;
- vergi tətbiq olunmayan yeni ehtiyatın yaradılması;
- mənfəət və gəlirdən tutulan vergi dərəcəsinə differensial yanaşmanın tətbiqi.

Qeyd etmək lazımdır ki, verilən güzəştlər sahibkarlıqla məşğul olan müəssisələrin hamısına deyil, iqtisadiyyatın müxtəlif sahələrinə aid olan və ya yalnız ölkənin səmərəsiz ərazilərində yerləşən qruplarına şamil edilir. Bir neçə inkişaf etmiş dünya ölkələri müxtəlif bizneslərə güzəştlər edərək vergi siyasəti tətbiq edirlər: məsələn, Böyük Britaniyada fəaliyyət göstərən müəssisələrin vergi dərəcəsi 45 % olmasına baxmayaraq, bu nəticələr kiçik firmalar üçün 30 %, Niderlandda isə 60 % əvəzində 30 %-dir; oxşar güzəştlər Fransada, həmçinin Almaniyada da vardır.

Sahibkarlıq müəssisələrinin əsas fondlarına vəsait qoyuluşu və risk kapitalının verilməsi təcrübəsi bir çox Avropa Birliyi üzvü olan dövlətlərdə xüsusən də Niderland, Fransa və Belçikada həyata keçirilir. Həmçinin adı çəkilən ölkələr zəmanət verərək vençur fondlarının yarana biləcək itkilərini qarşılayırlar.

Qərb ölkələrində yeniliklərə vençur müəssisələrinə kömək məqsədilə işlənib hazırlanmış proqramlar vasitəsilə maliyyələşdirmənin mənbələri, ölçü və istiqamətləri müəyyən edilir. İnkişaf etmiş ölkələrdə son onilliklərdə vençur kapitalı bazarı dinamik xarakter alaraq, bir neçə təşkilati formalarda: yeni yaradılan biznesə investisiya qoyan şirkətlər, nəhəng korporasiyaların vençur fondları və ixtisaslaşdırılmış müstəqil vençur kapitalı firmaları olan vençur fondları mövcuddur.

Vençur maliyyə əməliyyatları ilə məşğul olan vençur kapital firmaları məhz innovasiya biznesini maliyyələşdirir. Səciyyəvi xüsusiyyətləri və maliyyə-kredit təşkilatları ilə seçilən vençur kapital firmaları kapitalın yüksək əlaqələndirmə dərəcəsi ilə xarakterikdir: 80 milyon dollar həcmində olan fondları, orta statistik vençur kapitalı firmaları idarə edir.

Bizneslə məşğul olan müəssisələrin maliyyə dəstəklənməsi və tənzimlənməsini yaxşılaşdırmağa yönəlmiş tədbirlər planı aşağıdakılardır:

- banklarla sahibkarlıq fəaliyyəti müəssisələri arasında maliyyə əməliyyatlarının dəqiqliklə icra edilməsi;
- Avropa İnvestisiya Fondundan verilmiş zəmanətlərin alınması və Avropa İnvestisiya Bankının təmin etdiyi qlobal borclardan istifadədə rentabelliyin yüksəldilməsi;
- sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsinin xüsusiyyətlərinə görə bank qulluqçularının daha yaxşı hazırlaşdırılması;
- verdiyi borclar üzrə Avropa İnvestisiya Bankının faiz dərəcələrindən daha çevik istifadə olunması.

Beləliklə, bu tədbirlər kiçik, yaxud orta bizneslə məşğul olan sahibkarlıq müəssisələrinin fəaliyyət spesifikası və tələbləri nəzərə alınmaqla, onların maliyyələşdirilməsini böyük ara fərqlə asanlaşdıracaqdır.

Sahibkarlığın inkişafı ilə əlaqədar yuxarıda qeyd olunan və ya başqa maarifləndirici tədbirlərin həyata keçirilməsi üçün sahibkarlıq fəaliyyətinə dəqiq məlumatların təqdim olunmasında göstərilən kömək çox əhəmiyyətlidir. Sahibkarlığın texnoloji inkişafına kömək siyasətinin bir hissəsi də sahibkarlıq müəssisələrinin innovasiyalara, tədqiqatlara və təlim keçməyə əlçatanlığının yaxşılaşdırılmasıdır.

Dünya təcrübəsinə əsasən, ixrac məhsulları əlavə dəyər vergisindən, ixrac məhsullarının istifadəsi üçün idxal olunan mallar da ödənilməli olan idxal gömrük rüsumlarından azadolmalarla müşaiyət olunur. Bu tədbirlər sistemi bütün bazar subyektlərinin ixrac fəaliyyətini nizamlayır, buna baxmayaq kiçik biznesin bir sıra özünəməxsus xassələri vardır.

İlk öncə, bu növ biznes fəaliyyəti ilə məhsul ixrac edən sahibkarların lazımından daha artıq köməyə ehtiyacı vardır. Digər tərəfdən isə həvəsləndirmənin ünvanlılığını həyata keçirmək mütləq hesab edilir. Həmçinin ixrac sahəsində uğurlara nail olmuş kiçik və orta müəssisələrin təcrübəsindən istifadə olunur, xarici ticarətdə kiçik müəssisələrə məsləhətlər verilir, ixtisaslı kadr seçimi aparılır, kreditləşmə və sığortalanma əməliyyatları tətbiq edilir, istehsal olunan məhsulların ixracı ilə bağlı konsaltinq xidmətlər göstərilir.

Dövlət kreditləşdirməsi əməliyyatları ixrac kreditlərinin dövlət sığortalanması kimi sahibkarlıq fəaliyyətinə böyük dəstək olur. Sığorta isə şəxsi sığorta şirkətləri, dövlət təşkilatları yaxud özəl və dövlət müəssisələri büdcə daxilolmaları hesabına təmin edilir, həmçinin ixrac zamanı itkilərin yaranma ehtimalı 80-90 %-i azalır.

İxrac zamanı göstərilən yardım tədbirləri nəticəsində, Avropa Birliyinin nümayəndəliyinə aid olan dövlətlərin ixrac əməliyyatlarında məhsulunun xüsusi çəkisi bütün ixracın 70 %-ni təşkil edir, o cümlədən İrlandiyada 60 %, Yunanıstanda 66 %, Niderlandda 38 %, Belçika 42 %, Almaniyada 30 %, Fransada 22 %, İtaliyada 28 %-dir. Sahibkarlıq müəssisələrinin ixrac məhsulların istehsalında xüsusi çəkisi İrlandiyada 28 %, Fransada 29 %, Belçikada 55 % təşkil edir.

Qeyd edə bilərik ki, podratçı olmayan təşkilatlar vasitəsilə sahibkarlıq müəssisələri özlərinin tam emal edilmiş məhsulları ilə başqa müəssisələrdə istehsal edilib ixrac olunan hazır məhsulun buraxılışında da iştirak edirlər, nəticədə bu əməliyyat ixrac məhsullarının payını, məsələn, Fransada isə 68 %-ə, İtaliyada 65 %-ə qaldırır. Beləliklə, Avropa Birliyi ölkələrində sahibkarlığın inkişafının dəstəklənməsi və tənzimlənməsi iqtisadiyyatın bu sahəsinin fəaliyyətinin inkişafında mövcud olan çətinliklərin aradan qaldırılmasına, onun yaxşılaşdırılmasına gətirib çıxarır.

**Azərbaycanda innovativ sahibkarlıq fəaliyətinin mövcud durumu və gələcək perspektivlər**

Məlumdur ki, ölkədə sahibkarlığın inkişafı bir sıra amillərin mövcudluğu ilə şərtlənir: iqtisadi, hüquqi, texnoloji, innovasiya, sosial və s. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı” təsdiq edilmiş və bu sahibkarlıq sahəsində dövlət siyasətinin həyata keçirilməsində dönüş nöqtəsinə çevrilmişdir. Bazar iqtisadiyyatı ictimai mülkiyyat münasibətlərinin dəyişməsi, xüsusi növ mülkiyyət formalarının əsaslı şəkildə yaradılması, dövlətsizləşdirmə və özəlləşdirmənin həyata keçirilməsi azad sahibkarlığın inkişafına nail olmağın mahiyyətini təşkil edir. Respublikamızda hayata keçirilən tədbirlərdən biri işçi qüvvəsini fəaliyyət dairəsinə cəlb etməkdən, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyi olan hər bir iş adamı üçün, hər bir sahibkar üçün zəruri mühit yaratmaqdan ibaratdir. Qeyd edək ki, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, respublikada qəbul olunmuş “Sahibkarlıq haqqında” Qanun, “Dövlət mülkiyyətinin özəlləşdirilməsi”, “Antiinhisar fəaliyyəti haqqında” Qanun, və s. kimi qanun və qərarlar Azərbaycanda sahibkarlığın yaranması və inkişafı üçün hüquqi zəmin yaratmışdır [1].

Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi Azərbaycan Respublikasında iqtisadiyyatın inkişaf konsepsiyalarında aparıcı mövqedə olub istər istehsal və istehlak, istərsə də bölgü əlaqələrinin təmin edilməsində iqtisadi-təşkilati mexanizm funksiyasını həyata keçirir.

Azərbaycanın innovasiya strategiyasının hazırlanması ölkəmizdə innovasiyaların əlaqəli və kompleks şəkildə inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Rəqəmli texnologiyalar bütün sahələrə nüfuz etdiyi indiki şəraitdə internet və mobil texnologiyalar əsasında yeni biznes modellər yaranmaqdadır. İstehsalın təşkili, malların bazara çıxarılması, alqı-satışı, çatdırılması müasir texnologiyalar əsasında həyata keçirilir. Bütün bunlar müəssisələrin rəqabət qabiliyyətini artırır, bazarda yeni innovativ məhsul və xidmətləri meydana gətirir.

Azərbaycanda sahibkarlıq subyektləri üzrə innovasiya fəaliyyətinin əsas istiqamətlərinə aşağıdakılar aid edilir:

- innovasiyaların tətbiqi ilə əlaqəli əsas vəsaitlərin əldə edilməsi üzrə;
- istehsal və dizayn işi üzrə;
- yeni məhsulları istehsal üçün layihələndirmə üzrə.

Ölkəmizdə mühüm dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş və təkmilləşdirilmiş məhsul olmaqla, yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi ayrı-ayrı sahələr üzrə Cədvəl 1-də qeyd edilmişdir.

**Cədvəl 1**

**Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi (min manat)**

| | Mühüm dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul | | | Təkmilləşdirilmiş məhsul | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2019 | 2017 | 2018 | 2019 |
| Bütün sənaye | 14676,7 | 28952,2 | 21698,1 | 383,8 | 855,3 | 3905,9 |
| Mədənçıxarma sənayesi | - | 215,3,0 | 2495,7 | 183,8 | - | - |
| Emal sənayesi | 14676,7 | 28736,9 | 19202,4 | 200,0 | 855,3 | 3905,9 |
| ondan: | - | - | - | - | - | - |
| qida məhsullarının istehsalı | 589,5 | 831,2 | 328,0 | - | - | 21,0 |
| kimya sənayesi | 1705,1 | 55,0 | - | - | 738,0 | - |
| metallurgiya sənayesi | 2176,0 | 7690,0 | 12560,0 | - | - | 3852,0 |
| kompüter və digər elektron avadanlıqların istehsalı | 9990,3 | 19937,9 | 6073,2 | - | - | - |
| maşın və avadanlıqların istehsalı | 215,8 | 222,8 | 241,2 | 167,1 | 82,8 | - |

Azərbaycanda innovativ inkişaf istiqamətində müasir sənaye parkları, sənaye məhəllələri, aqroparklar, innovasiya layihələri, elektron hökumət, fondlar yaradılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında innovasiyalarla bağlı əsas hədəflər öz əksini tapıb [2].

Təkrar istehsal sahəsinə maraq göstərən sahibkarlara münbit işgüzar mühitin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə ikinci sənaye parkı - Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılmışdır. Parkının ərazisi 7 ha təşkil edir. Parkda işlənmiş mühərrik yağlarının, tullantı plastik butulka və materialların, kağız-karton məmulatların, süngər tullantılarının təkrar emalı və s. sahələri üzrə rezidentlər fəaliyyət göstərir. Balaxanı Sənaye Parkında 2018-2020-ci illər ərzində fəaliyyət göstərən rezidentlər üzrə satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri 43 mln manat təşkil etmişdir (Cədvəl 2).

**Cədvəl 2**

**Balaxanı Sənaye Parkında fəaliyyət göstərən rezidentlər üzrə satılmış məhsulların və xidmətlərin dəyəri (mln manat)**

| Rezidentin adı | Satılmış məhsulların və xidmətin dəyəri (mln manat) | | | |
|---|---|---|---|---|
| | Ümumi | 2018 | 2019 | 2020 |
| "Ekokat" MMC | 0,403 | 0,170 | 0,065 | 0,053 |
| "Az Ekol" MMC | 4,477 | 1,900 | 1,563 | 0,557 |
| "MET-AK" MMC | 1,612 | 0,33 | 0,429 | 0,578 |
| "Foriella" MMC | 33,647 | 4 | 12,16 | 16,840 |
| **Cəmi** | **43,0** | **7,07** | **15,28** | **19,14** |

Parkın yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun və "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədinə xidmət edir. Eyni zamanda parkda fəaliyyət göstərən rezidentlərin ixracda da payı vardır (Cədvəl 3).

**Cədvəl 3**

**Balaxanı Sənaye Parkında fəaliyyət göstərən rezidentlər üzrə ixracın dəyəri (mln manat)**

| Rezidentin adı | İxracın dəyəri, mln manat | | | |
|---|---|---|---|---|
| | Ümumi (bu günədək) | 2018 | 2019 | 2020 |
| “Ekokat” MMC | 0,019 | | | 0,019 |
| “Az Ekol” MMC | 4,441 | 1,900 | 1,540 | 1,001 |
| “Foriella” MMC | 2,088 | 0,420 | 0,495 | 1,173 |
| “Bioropean” MMC | 0,539 | 0,044 | 0,224 | 0,271 |
| **Cəmi** | **7,09** | **2,36** | **2,26** | **2,46** |

Ümumiyyətlə, Azərbaycanda və keçid iqtisadiyyatını atlamış olan digər ölkələrdə iqtisadiyyatın inkişafı və bazar iqtisadiyyatına keçid üçün innovasiya sahibkarlığının rolu əvəzolunmazdır. Çünki bu ölkələrdə istehsal imkanları, məhsulun keyfiyyəti digər ölkələrlə müqayisədə çox aşağıdır. Həmin ölkələrin məhsulları dünya bazarında rəqabət edə bilmir və hətta bu məhsullar dünya bazarına uyğun olmur. Hazırda ölkəmizdə innovasiya sahibkarlığı özünün ilkin mərhələsindədir. Bu vəziyyət bir sıra səbəblərlə əlaqələndirilir ki, bunlara tədqiqat nəticələrinə ayrılan vəsaitin azlığı, innovasiya sahibkarlığına dövlət dəstəyinin təsirli mexanizmlərinin yetərli olmaması, beynəlxalq təşkilatlarla elmi sfera arasındakı tərəfdaşlığın zəifliyi aiddir.

İnnovasiyalar innovasiya sahibkarlığı konsepsiyasının mərkəzi kateqoriyasıdır, onlar proseslərin mahiyyətini, xüsusiyyətlərini, idarəetməsinin xarakteristikalarını müəyyənləşdirirlər. İnnovasiyaların mahiyyəti aşağıdakı müddəalara əsaslanır:

- sözün geniş mənasında yenilik – innovasiya yeni və ya təkmilləşdirilmiş texniki, texnoloji, idarəetmə həllərinin istifadəsi nəticəsində baş verə biləcək bir dəyişiklikdir;
- innovasiyaların təbiəti bazar (ticarət) yeniliklərinin elmi və texnoloji yeniliklərdən üstün olması ilə əlaqədardır;
- innovasiya sferasında ayrı-ayrı proseslər, ictimai istehsal bir vahiddə birləşdirilir. İnnovasiya bu zaman yalnız uyğun yenilikləri yaratmağı tələb etmir, həm də onların paylanması və istifadəsi şərtlərinin müəyyən edilməsini təmin edir.

“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda qeyd edilir ki, innovasiya fəaliyyətinə aşağıdakılar daxildir:

- uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi [3].

Azərbaycanda və keçid iqtisadiyyatlı ölkələrdə iqtisadiyyatı inkişaf etdirərək, bazar iqtisadiyyatına keçmək üçün innovasiya sahibkarlığının rolu əvəzedilməzdir. Buna səbəb isə keçid iqtisadiyyatlı ölkələrdə istehsal imkanları, məhsulun keyfiyyəti digər ölkələrlə müqayisədə çox aşağıdır. Bu ölkələrin istehsal etdikləri məhsullar dünya bazarında rəqabətə cavab vermir, hətta bu məhsullar dünya bazarı üçün yararlı deyil. Bu baxımdan İnsanların yaradıcılıq patensiallarından istifadə etmək məqsədilə innovasiya sahibkarlığının inkişafı və ona dövlət dəstəyi vacibdir [5].

**Nəticə**

Ümumiyyətlə, aparılmış təhlil onu göstərir ki, bu gün Azərbaycan Respublikasında iqtisadi sahələr üzrə innovativ inkişafın təmin edilməsi üçün ölkənin qeyri-neft sektoru üzrə fəaliyyət göstərən müəssisələrdə müasir innovasiyalı texnologiyaların tətbiqi, bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, onların istehsal etdikləri məhsulların xarici bazarlara ixracının dəstəklənməsi, investisiya qoyuluşlarının həcminin innovativ müəssisələr üzrə yüksəldilməsi, müasir innovasiya siyasətinin iqtisadi sahələr üzrə davam etdirilməsi və s. zəruridir.

Dünya təcrübəsinə əsasən müəyyən olunub ki, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatında əsas rol oynayır, iqtisadi artım tempini müəyyən edir, həmçinin kadr, maliyyə və maddi resursların daha effektiv bölgüsünü təmin edir. Sahibkarlığın inkişafı sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin həmçinin cəmiyyətin sosial problemlərinin həllinə köməklik edir və kiçik biznes, habelə regional iqtisadiyyatın inkişafına da müsbət təsirini göstərir, ölkədə rəqabət mühitinin yaradılmasına şərait yaradır, yeni iş yerləri yaradır. Sahibkarlıq fəaliyyəti cəmiyyətdə və iqtisadiyyatda özünəməxsus işə salma mexanizmi və struktur dəyişikliklərin bələdçisidir. Bu dəyişiklik iqtisadi artımın hərəkətverici qüvvəsi kimi, ölkənin ümumi buraxılışının artmasına təsir göstərir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi // Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il, 1138 nömrəli Fərmanı
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı
3. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 551-VIQ nömrəli Qanunu. URL: https://e-qanun.az/framework/50048
4. Cəbiyev F., Qasımov İ. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı: BMM-in nəşriyyatı, 2017, 182 s.
5. Xəlilov A.İ. Firma iqtisadiyyatı və sahibkarlıq. Dərslik. Bakı: MBM, 2014, 312 s.

## THE EXPERIENCE OF FOREIGN COUNTRIES ON THE DEVELOPMENT OF INNOVATIVE ENTREPRENEURIAL ACTIVITY

**N.Abbasova-Zeynalova**
Mingachevir State University

***Abstract:*** *In modern times, entrepreneurial activity affects the structure of the gross national product, the rate of economic growth and the level of quality. Under these circumstances, it becomes necessary to support and help the entrepreneurial activity by the state. The establishment and development of production enterprises engaged in entrepreneurial activity accelerates the establishment of innovative technologies in economic fields, the level of employment of the population increases accordingly, and free competition conditions are created.*
***Keywords:*** *innovation, entrepreneurial activity, technology, state support, modernization, innovative entrepreneurship, employment level, unemployment*

## ОПЫТ ЗАРУБЕЖНЫХ СТРАН ПО РАЗВИТИЮ ИННОВАЦИОННОЙ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**Н.Н.Аббасова-Зейналова**
Мингячевирский государственный университет

***Резюме:*** *В современное время предпринимательская деятельность влияет на структуру валового национального продукта, темпы экономического роста и уровень качества. В этих условиях возникает необходимость поддержки и помощи предпринимательской деятельности со стороны государства. Создание и развитие производственных предприятий, осуществляющих предпринимательскую деятельность, ускоряет внедрение инновационных технологий в области экономики, соответственно повышается уровень занятости населения, создаются условия для свободной конкуренции.*

***Ключевые слова:*** *инновации, предпринимательская деятельность, технологии, государственная поддержка, модернизация, инновационное предпринимательство, уровень занятости, безработица*

**Elmi redaktor: i.e.d., prof. E.Sadıqov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 01.09.2024**
**Çapa qəbul edilib: 15.09.2024**